# Qəbələ sürətli inkişafın yeni mərhələsində

## Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2014-cü ildə sosial-iqtisadi inkişafın yekunlarına dair hesabat məruzəsi

(Əvvəli 6-cı səhifədə).

Aqrar sahəyə dövlət qayğısının daim artması nəticəsində, rayonumuzun kənd təsərrüfatı sahəsində də əhəmiyyətli irəliləyiş hiss edilir. Xüsusən qeyd etmək lazımdır ki, hörmətli Prezidentimiz cənab İlham Əliyev tərəfindən imzalanmış "Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" 2007-ci il 23 yanvar tarixli Sərəncam fermerlərimizdə böyük ruh yüksəkliyi yaratmışdır. Rayon komissiyası tərəfindən Sərəncamın icrası ilə əlaqədar 2013-cü ilin sonunda torpaq mülkiyyətçilərinə dövlət büdcəsinin vəsaiti hesabına 734.380 manat yardım hesablanmış və həmin vəsait 2014-cü ilin I rübündə plastik kartlar vasitəsilə sahiblərinə çatdırılmışdır. Bundan əlavə komissiya tərəfindən keçən ilin iyun ayında rayonun 1915 nəfər torpaq mülkiyyətçisinə əkin sahələrinin becərilməsinə görə 1.056.783 manat vəsait hesablanaraq ödənilmişdir. 2014-cü ilin 01 dekabr vəziyyətinə 955 nəfər buğda istehsalçılarına 498.551 manat kompensasiya hesablanmış və həmin məbləğin cari ilin I rübü ərzində məhsul istehsalçılarına verilməsi nəzərdə tutulmuşdur.

2015-ci ilin məhsulu üçün 21.300 hektar sahədə payızlıq dənli bitkilər əkilmişdir. Onun 14.015 hektarını buğda, 7.285 hektarını isə arpa sahələri təşkil edir.

Rayonda 2014-cü ilin məhsulu üçün 4894 ha sahədə yazlıq bitkilər əkilmişdir. Əkilmiş sahənin 1.157 hektarını kartof, 2.096 hektarını tərəvəz, 1.368 hektarını qarğıdalı, 130 hektarını bostan bitkiləri, 143 hektarını günəbaxan 1.258 hektarını isə birillik və coxillik otlar təşkil etmişdir. Həmin sahələrdən 7.497 ton kartof, 9.495 ton tərəvəz, 1.872 ton bostan məhsulu, 3.144 ton qarğıdalı, 114 ton günəbaxan, 14.115 ton meyvə, 1.414 ton üzüm istehsal olunmuşdur.

İl ərzində rayonda mövcud olan əkin sahələrində torpağın münbitliyini öyrənmək məqsədilə 10.852 ədəd torpaq və 6.411 ədəd məhsul nümunələri götürülərək aqrokimya laboratoriyasında analiz edilmiş və nəticələri barədə istehsalçılara məlumat verilmişdir. Laboratoriyanın mütəxəsisləri sahələrə baxış keçirərək əkin yerlərinə mineral gübrələrin və pestisidlərin norma daxilində verilməsinə lazımi köməklik göstərilmiş, mineral gübrələrin səpilməsində də yaxından iştirak etmişlər.

Keçən dövr ərzində ziyanvericilərə və alaq otlarına qarşı mübarizə tədbirləri görülmüşdür. İl ərzində alaq otlarına qarşı 4828 hektar sahə dərmanlanmış, 890 hektar sahədə isə gəmiricilərə qarşı mübarizə tədbirləri həyata keçirilmişdir.

2014-cü ilin payız mövsümündə də ziyanvericilərə qarşı mübarizə tədbirləri davam etdirilmişdir.

2014-cü ildə DT və XK-nin Qəbələ Rayon Şöbəsi tərəfindən Kürd, Bayramkoxalı və Kötüklü kəndlərində inzibati ərazilərin elektron xəritələri hazırlanmış, Dizaxlı, Bılıx və Əmirvan kənd inzibati ərazilərinin isə xəritələrinin çəkilməsi üçün hazırlıq işləri aparılmışdır. Qəbələ Rayon Torpaq Kadastrı Mərkəzi müraciət edən vətəndaşlara torpaqların plan və ölçüsü barədə bütün sənədləri vaxtında tərtib edərək vermişdir.

Dövlət Meşə Fondu torpaqlarında 2014-cü il ərzində 60 ha süni meşə salınmışdır. Elecə də 1.433 hektar ərazidə meşə əkinlərinə xidmət olunmuş, 2 hektar sahəyə 4.578 kq ağac və kol cinslərinin toxumları səpilmiş, 0,5 hektar sahədə 25.000 ədəd çilik kökləndirmə üçün basdırılmışdır. Payız mövsümündə magistral yol kənarlarında 3.500 ədəd ağac əkilmişdir.

Hazırda rayonda kənd təsərrüfatı işlərinin həyata keçirilməsi məqsədi ilə 2 böyük və 2 kiçik həcmli aqroservis müəssisəsi fəaliyyət göstərir. Bundan əlavə kəndlərimizdə 410 fiziki şəxsdə 80 ədəd taxılyığan kombayn, 53 ədəd tırtıllı və 448 ədəd təkərli traktor, 29 ədəd buldozer, 38 ədəd ekskvator və s. kənd təsərrüfatı texnikası mövcuddur. Kənd təsərrüfatı texnikası parkı daim təzələnir. "Aqrolizinq" müəssisəsinin şəraitinin yaxşılaşdırılması məqsədilə bu il qurum üçün inzibati və anbar binalarının tikintisinə başlanılması nəzərdə tutulmuşdur.








*Qəbələ Arxeoloji Mərkəzinin açılışında.*

Kənd təsərrüfatının digər sahələrində olduğu kimi heyvandarlıq sahəsində də əhəmiyyətli nəticələr əldə edilmişdir. 2015-ci ilin əvvəlinə verilən məlumata görə iri buynuzlu mal-qara 48.303 baş, xırda buynuzlu mal-qara 218.617 baş, donuzlar 1.037 baş, quşlar isə 350.214 baş olmuşdur. Əvvəlki ilə müqayisədə heyvandarlıq məhsullarının istehsalı xeyli çoxalmış, ət istehsalı 265 ton artaraq 6885 tona, süd istehsalı 2.255 ton artaraq 37.385 tona, yumurta istehsalı 37.000 ədəd artaraq 10.387 min ədədə, yun istehsalı isə 6 ton artaraq 487 tona çatdırılmışdır.

Rayonda mal-qaranın damazlıq keyfiyyətlərinin yaxşılaşdırılması üçün 6 süni mayalama məntəqəsi fəaliyyət göstərir. İl ərzində 4.377 baş inək və düyələrdə süni mayalama aparılmışdır ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqyisədə 174 baş çoxdur.

Hazırda Vəndam Aqrokompleksində 100 dən artıq satış üçün nəzərdə tutulmuş yüksək məhsuldar boğaz düyə vardır.

Heyvanların yoluxucu xəstəliklərə tutulmaması ilə əlaqədar vaxtaşırı lazımi müayinə və profilaktika işləri aparılır. Rayonda epizootik durum demək olar ki, sabitdir. 2014-cü il ərzində 12 baş iri buynuzlu və 4 baş xırda buynuzlu heyvanın bruselloza qarşı müayinə zamanı xəstə olduğu müəyyən edilərək təsərrüfatdan çıxarılmışdır. Respublikada iri buynuzlu mal-qara arasında yayılmış nodulyar dermatit virus xəstəliyi, dabaq, qarayara, leptesprioz, çiçək və sair kimi xəstəliklər rayonumuzun təsərrüfatlarında aşkar edilməmişdir.

2014-cü ildə balıqyetişdirmə zavodu tərəfindən 53.300 ədəd balıq körpəsi yetişdirilərək Xəzər dənizinə və Kür çayına buraxılmışdır.

Zavod dördüncü rübdə 2015-ci il üçün 300 min ədəd kürü götürmüşdür. Götürülmüş kürülərin hazırda inkubasiya sexində yetişdirilməsi prosesi həyata keçirilir.

Hesabat dövründə respublikanın kənd təsərrüfatı məhsullarının satışı yarmarkalarında 49,5 ton tumlu, 56,6 ton qərzəkli, 6,8 ton çəyirdəkli meyvələr satılmışdır. Məhsul istehsalçılarının satış yarmarkalarında iştirakı davam edir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı 25 avqust 2008-ci il tarixli sərəncamı ilə təsdiq olunmuş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"na müvafiq qaydada rayonda taxılçılığın inkişafına xüsusi diqqət verilir. Məlum olduğu kimi taxılçılığın inkişafına təsir edən mühüm amillərdən biri yüksək məhsuldar toxum növlərinin yetişdirilməsidir. Yüksək məhsuldar toxum növlərinin əldə olunması üçün, rayonda 5 özəl toxumçuluq təsərrüfatı fəaliyyət göstərir. 2015-ci il üçün yüksək kondensiyalı toxum növlərinin yetişdirilməsi məqsədi ilə həmin təsərrüfatların əkin sahələrində zəruri aqrotexniki tədbirlərin aparılması təmin edilmişdir.

(Ardı 8-ci səhifədə).